# Türkdilli ölkələrlə turizmin inkişaf strategiyası hazırlanır




***Azərbaycan beynəlxalq turizm əlaqələrini genişləndirməkdə maraqlıdır. Belə ki, ölkəmiz vaxtaşırı beynəlxalq turizm sərgilərində iştirak edir, öz potensialını təbliğ etmək üçün dünyanın turizm təşkilatları ilə mütamadi əlaqələr yaradır. Turizm sahəsinin inkişafını özü üçün prioritet elan edən Azərbaycanın dünyanın əksər ölkələri ilə bu sahədə əlaqələri mövcuddur. Türk dövlətləri bu baxımdan istisna deyil.***

Qeyd edək ki, Türk dövlətləri kifayət qədər geniş turizm potensialına malikdir. Türk Dövlətləri Təşkilatında ən inkişaf etmiş turizm sektoru Türkiyədədir. Türkiyə dünyada ən çox turist qəbul edən ölkələr sırasındadır. Eyni zamanda, Azərbaycan və Orta Asiyada yerləşən ölkələrin də turizm potensialı kifayət qədər yüksək qiymətləndirilir.

Nəzərə alsaq ki, pandemiyadan əvvəl Azərbaycana gələn turistlərin sayı 3,2 milyon nəfər idi, pandemiya başa çatdıqdan sonra da bu nəticənin yenidən bərpasına nail olunacaq. Hətta, bu sahədə daha böyük uğurlar əldə etmək imkanlarımız var. Azərbaycanın turizm sahəsində çox böyük potensialı mövcuddur. Bu potensial həm də türk dövlətlərindən turistlərin cəlb edilməsi istiqaməti üçün yeni imkanlar yaradır.

Azərbaycana və xüsusilə də işğaldan azad olunmuş ərazilərimizə, Şərqin mədəniyyət incilərindən biri olan Şuşa şəhərinə səfər etmək istəyən xaricilərin sayı kifayət qədər çoxdur. Xüsusən də, Türkiyədən, türk dövlətlərindən bu istək daha çox hiss olunur. Bütün bunları nəzərə alanda əminliklə deyə bilərik ki, postpandemiya dövründə ölkəmizə səfər edəcək turist sayı baxımından korluq çəkməyəcəyik. Turistlərin böyük bir qisminin türk dövlətlərini təmsil edəcəyi də gözləntilər sırasındadır. Çünki Türk Dövlətləri Təşkilatına üzv ölkələr Azərbaycanla turizm əlaqələrinin genişləndirilməsinin marağındadırlar.

Azərbaycanda müalicəvi, mədəni, tarixi, dini və digər turizm sahələri baxımından mövcud potensial imkan verəcək ki, türk dövlətləri arasında əməkdaşlıq növbəti mərhələdə daha da genişlənsin.

Azərbaycan Dövlət Turizm Agentliyindən verilən xəbərə görə, qurumun hər region üzrə öz strategiyası mövcuddur. Xəzəryanı ölkələr, Türk Dövlətləri Təşkilatı kimi birliklərlə də turizm sahəsi üzrə əməkdaşlığı nəzərdə tutan müəyyən planlar, layihələr hazırlanır. Pandemiyadan əvvəl türkdilli ölkələrlə, xüsusilə dünyada turizmin inkişaf səviyyəsinə görə ilk yerlərdən birini tutan Türkiyə ilə geniş əlaqələr mövcud olsa da, son illərdə məlum səbəbdən turistlərin qarşılıqlı səfərlərində müəyyən azalmalar var. Lakin artıq bütün dünya postpandemiya dönəmini yaşayır. Bu səbəbdən bizim də əlaqələrimiz normal məcraya dönməyə başlayıb. Gələcəkdə bu əlaqələrin müxtəlif istiqamətli layihələrlə daha da genişləndirilməsi nəzərdə tutulur.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 17 fevral.- S.7.